Ədəbiyyat qəzeti

18 10 oktyabr 2020-ci il



Ənvər ƏHMƏD

*Otuz illik yaramızın sağalması üçün dünya ilə çarpışan qeyrətli türk oğlu Ali Baş Komandanımız, prezident İlham Əliyevə dərin hörmət və məhəbbətlə*

*Ali Baş Komandanım!*
*Əmrinə müntəzirik.*
*Əfi ilan başıtək*
*Düşmən başın əzirik!*
*Əmrin eşidiləntək*
*Ordu hücuma keçdi.*
*Azğın düşmənimizin*
*Həyat çırağı keçdi.*
*Sənə bu Odlar yurdu,*
*Əhsən dedi ürəkdən,*
*Sənin başın ucadır, yeni tarix yazırsan.*
*Sən şərin və nahaqqın məzarını qazırsan.*
*Qarabağ Azərbaycandı! -*
*Böyük qürurla dedin.*
*Xocalının qisasın mütləq alacağıq biz.*
*Coşubdu nifrətimiz, çalxınır dəniz-dəniz!*
*...Ey məğrur Baş Komandan,*
*Söylədin ki: qana-qan!..*
*Şuşamız bu millətin namus, qeyrət mərkəzi,*
*Ağdam bu ulu xalqın alovu, odu, közü,*
*Bu xalq alnından öpür, hökmün qılıncdan iti,*
*Ucaldırsan qeyrətlə müqəddəs məmləkəti.*
*Sən günəş gətirirsən əsir düşən yurduna,*
*Bir cəsarət verirsən qızıl qanad orduna!*
*Bu xalq qalxıb ayağa, sənə alqış söyləyir,*
*Düşmən ağır gündədir, gecə-gündüz inləyir.*
*Bax, qarşında diz çökür murdar, sərsəri, yağı,*
*Əski kimi yellənir indi düşmən bayrağı.*
*Daha sızlamaz qəti, xalqının sinə dərdi,*
*Sevincimiz bu saat uca göylər qədərdi.*
*Tarix qızıl hərflə, alov-alov yazılır,*
*Artıq mənfur düşmənə dərin qəbir qazılır!..*
*Mənim Prezidentim!*
*Adınla duyduq qürur.*
*Vətənin göylərində qızıl günəş doğulur.*
*Düşmənin başı üstə, bayrağın dalğalanır,*
*Bayraq günəştək yanır!*
*Otuz illik yaradan*
*İndi xilas oluruq,*
*Elə bil ki, xalq kimi*
*Təzədən doğuluruq!*
*...Arxanda Xalq dayanıb,*
*Ucasan Murov qədər.*
*Bu qeyrətli savaşın,*
*Dünyanı heyran edər!*
*Sən "vur" dedin, biz vurduq,*
*Səngərləri uçurduq.*
*Kəlbəcər sərt qalamız,*
*Füzuli mərd qalamız.*
*Laçın qolunu açdı...*
*Düşmən dəlitək çaşdı!*
*Xalq dedi: - Ey igidim,*
*Yaxın gəl qucaqlaşaq,*
*Birlikdə dağlar aşaq.*
*Sən kişilik qeyrəti*
*Göstərdin millətinə.*
*Qovuşdun elə bil ki*
*Yurd-yuva cənnətinə*
*Ali Baş Komandanım,*
*Əhsən, əhsən adına.*
*Qızındıq oğul kimi*
*Sənin Vətən oduna.*
*Soy-kökün Əlidir*
*Əli!*
*Qoyulacaq adına,*
*Qəhrəmanlıq Heykəli!*